# Şərəf və qürur tariximiz

**Azərbaycan xalqının zəngin dövlətçilik ənənələri olduğunu bütün dünyaya sübut edən ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu qeyd etmişdir. Bir çox dövlət təsisatları kimi, Ədliyyə Nazirliyinin də yaranması Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 aylıq 1918-1920-ci illərə təsadüf edir. Yüz bir illik inkişaf yolu keçən Azərbaycan Ədliyyəsinin şanlı tarixi 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gündə Ədliyyə Nazirliyinin təsis edilməsi ilə başlamış, təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk Ədliyyə naziri təyin olunmuşdur. Həmin ilin noyabrın 22-də nazirliyin əsasnaməsi təsdiq edilmiş, onun funksiya və səlahiyyətləri müəyyən edilmişdir.**

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ədliyyə Nazirliyinin səmərəli fəaliyyətini təmin etmək məqsədilə bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər arasında 6 aylıq hüquq kurslarının yaradılması böyük əhəmiyyət kəsb edirdi. Bu milli hüquqşünaslar, ədliyyə, məhkəmə kadrlarının hazırlanması üçün atılan ən mühüm addımlardan biri idi. Gimnaziya təhsilli şəxslər 6 aylıq kursları müvəffəqiyyətlə başa vurduqdan sonra Ədliyyə Nazirliyi, məhkəmə və prokurorluq sahəsində fəaliyyət göstərmək hüququ qazanırdılar.

Fəaliyyəti unudulmaz hadisələrlə yadda qalan Ədliyyə Nazirliyinin həm də çətin və mürəkkəb dövrləri də olmuşdur. 1920-ci ilin aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən, Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra milli dövlətçiliyin əsas sütunlarından olan Ədliyyə Nazirliyi ləğv edilərək əvəzində Xalq Ədliyyə Komissarlığı yaradılmış, səlahiyyətləri əhəmiyyətli dərəcədə məhdudlaşdırılmış, iki dəfə ləğv olunaraq yenidən təsis edilmiş, funksiyaları ayrı-ayrı vaxtlarda prokurorluq, məhkəmə orqanlarına verilmişdir. Ədliyyə sisteminin stabil funksiya və struktura malik olmaması onun inkişafına əngəllər törətmişdir.

Sovet hakimiyyəti dövründə sonuncu dəfə 1959-cu ildə ləğv edilən Ədliyyə Nazirliyinin fəaliyyətində yaranan on bir illik fasilə Ədliyyə sisteminin inkişafına ciddi ziyan vurmuşdur.

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilməsi, Ədliyyə işinin təkmilləşdirilməsi 1970-ci ilə məhz ümummilli liderimiz Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrə təsadüf edir. Azərbaycan SSR Ali Sovetinin 27 oktyabr 1970-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi bərpa edilmişdir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən, xüsusilə ulu öndər Heydər Əliyevin ölkə Prezidenti seçilməsindən sonra Azərbaycan Ədliyyəsinin fəaliyyətində yeni bir mərhələ başlanmışdır. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin imzaladığı qərarla 22 Noyabr — Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi təsis edilmişdir.

2006-cı ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin yeni əsasnaməsi qəbul edilmişdir. Əsasnaməyə görə, ona hüquq-mühafizə orqanı statusu verildi. Nazirliyin yeni müasir görünüşlü rəsmi emblemi təsdiq edildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ötən il - 2018-ci ildə xalqımız həm Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini, həm də Cümhuriyyət dövründə yaradılmış dövlət təsisatlarının, o cümlədən Azərbaycan Ədliyyəsinin 100 illiyini böyük coşqu, sevinc və təntənə ilə bayram etdi.

Azərbaycan Ədliyyəsi öz mövcudluğunun 2-ci yüzilliyinin ilk ilini başa vurmaqdadır. Ədliyyə orqanlarımız mövcudluğu ərzində xalqımızın öz müstəqilliyi uğrunda apardığı mübarizənin yardımçılarından biri olmaqla, mürəkkəb və şərəfli bir təkamül yolu keçərək daim inkişaf etmiş və təkmilləşmiş, fəaliyyət göstərdiyi bütün dövrlərdə öz xalqına və dövlətçiliyimizə sədaqətlə qulluq etmiş, hansı şəraitdə fəaliyyət göstərməsindən asılı olmayaraq, qanunların aliliyinin təmin edilməsi, vətəndaşların hüquqlarının müdafiəsi işində öz xidmətlərini göstərmişdir. Azərbaycan Ədliyyəsinin dövlətçiliyə sədaqəti, vətəndaşların hüquq və mənafelərinin qorunması sahəsində ardıcıl fəaliyyəti ümummilli lider Heydər Əliyev tərəfindən layiqincə qiymətləndirilmişdir.

Bu gün dövlətimizin başçısı İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsidir ki, ədliyyə işçilərinə yüksək səviyyədə qayğı göstərilir, onların sosial-maddi təminatı yaxşılaşdırılır, ədliyyə orqanlarının tərkibi gənc və istedadlı kadrlarla yeniləşdirilir. Ədliyyə orqanlarının maddi-texniki bazası müasir tələblərə cavab verməklə yenidən təşkil olunur.

Ədliyyə Nazirliyinin cəmiyyətdə rolunun daha da artırılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 18 dekabr 2018-ci ildə 2019-2023-cü illərdə Azərbaycan Ədliyyəsinin inkişafına dair dövlət Proqramını təsdiq etdi. Proqramda Ədliyyə sisteminin müasirləşdirilməsi, Ədliyyə xidmətinin keyfiyyətinin yüksəldilməsi, beynəlxalq əməkdaşlığın daha da gücləndirilməsi, təkmilləşdirilməsi nəzərdə tutulur. Beynəlxalq təcrübənin öyrənilməsi sahəsində mühüm addımlar atılır. Kadrlarla aparılan işlər onların peşə hazırlığının səviyyəsinin müasir tələblərə cavab verməsini təmin edir.

Ədliyyə Akademiyasının fəaliyyət göstərməsi təkcə Ədliyyə orqanlarının deyil, prokurorluq, məhkəmə orqanlarının kadrlarının peşə hazırlığının yüksəldilməsində böyük rol oynayır. Bu gün Ədliyyə Akademiyasında Ədliyyə orqanlarında işləmək istəyənlər üçün yaradılmış 3 aylıq icbari kursların gördüyü işlər əvəzsizdir. Burda 2 aylıq nəzəri məşğələlər aparılır, 1 aylıq təcrübə keçirilir. Nəzəri kurslardan keçən şəxslər öyrəndiklərini təcrübədə möhkəmləndirmək, tətbiq etmək imkanı əldə edirlər. Həmçinin, Akademiyada Prokurorluq və məhkəmə orqanlarında işə qəbul olunmaq istəyən hüquq təhsilli şəxslər üçün hazırlıq kursları təşkil olunmuşdur. Penitensiar müəssisələrdə işləyən kadrların, icra məmurlarının hazırlığı da Ədliyyə Akademiyasında aparılır və bu sahələrə xüsusi diqqət ayrılır.

Bu gün dünyanın bir çox ölkələrindən Penitensiar müəssisələrin fəaliyyətini öyrənmək üçün Azərbaycana gəlirlər.

Ölkəmizdə ədliyyə sahəsində aparılan məqsədyönlü işlər Qeydiyyat şöbələrini də əhatə edir. Qeydiyyat şöbələrinin işi təkmilləşdirilir, əməkdaşların peşə hazırlığının yüksəldilməsi üçün tədbirlər həyata keçirilir.

Ötən il mövcudluğunun 100 ilini şərəflə başa vurmuş Azərbaycan Ədliyyəsi ikinci yüzilliyin 1-ci ilindən daha böyük, mühüm uğurlara imza atmaq, hüquqi xidmətin vətəndaşlar üçün əlçatan olmasını təmin etmək əzmindədir. Bunu söyləməyə başa çatmaqda olan 2019-cu ilin 11 ayında aparılan işlər, islahatlar, qazanılan uğurlar imkan verir.

**Könül MƏMMƏDOVA,**
**Göyçay Qeydiyyat Şöbəsinin rəisi.**

Respublika.- 2019.- 22 noyabr.- S.10.